Jos-Jd Lat:Azeri Bible Cyrillic 04.03.2009 13:24 Page 344

# YƏHYANIN ÜÇÜNCÜ MƏKTUBU

## GİRİŞ

*«Yəhyanın Üçüncü Məktubu»* cəmiyyətin Qay adlı bir rəhbərinə ünvanlanıb. Həvari Yəhya onu başqa məsihçilərə kömək etməsinə görə tərifləyir və Diotref adlı bir nəfərə xəbərdarlıq edir.

***Kitabın məzmunu:***

1:1-8 Qaya tərif və nəsihət
1:9-12 Diotref və Dimitri barədə
1:13-15 Xudahafizləşmə

1 [1]Mən ağsaqqaldan həqiqətə görə
sevdiyim əziz Qaya salam!

### *Tərif və nəsihət*

[2]Ey sevimli, dua edirəm ki, canın
uğurlu olduğu kimi özün də hər
cəhətdən uğurlu və sağlam olasan.
[3]Bəzi qardaşlar gəlib sənin həqiqətə
bağlılığına, yəni həqiqətə görə həyat
sürdüyünə şəhadət edəndə mən çox
sevindim. [4]Mənim üçün öz övlad-
larımın həqiqətə görə həyat sürdüyünü
eşitməkdən böyük sevinc ola bilməz.
[5]Ey sevimli, sənə hətta yad olduq-
ları halda qardaşlara xidmət etməkdə
sədaqət göstərirsən. [6]Onlar cəmiyyətin
qarşısında sənin məhəbbətin barədə
şəhadət ediblər. Sən onları Allaha
layiq bir tərzdə yola salarkən yaxşı iş
görəcəksən. [7]Çünki onlar imansız
olanlardan heç nə götürmədən Onun
naminə yola çıxdılar. [8]Beləcə biz hə-
qiqət işində həmkar olmaq üçün bu
cür adamlara dayaq olmalıyıq.
[9]Cəmiyyətə bir şey yazdım, amma
onların arasında başçılıq etməyi sevən
Diotref bizim səlahiyyətimizi tanımır.
[10]Buna görə də mən gələndə onun
etdiyi əməllərlə bağlı məsələ qaldıra-
cağam: o bizim barəmizdə pis sözlərlə
qeybət edir, hətta bununla kifayətlən-
məyərək qardaşları özü qəbul etmir,
qəbul etmək istəyənlərə də mane olur
və onları cəmiyyətdən qovur.
[11]Ey sevimli, pislikdən yox, yaxşı-
lıqdan nümunə götür. Yaxşılıq edən
Allahdandır, pislik edənsə Allahı
görməyib. [12]Hamı Dimitrinin yaxşı
adam olduğuna şəhadət edir, həqiqə-
tin özü də bunu təsdiq edir. Biz də
buna şəhadət edirik və sən də bilirsən
ki, bizim şəhadətimiz etibarlıdır.

### *Xudahafizləşmə*

[13]Sənə yazılası çox sözüm var, am-
ma bunları sənə qələm və mürəkkəblə
yazmaq istəmirəm. [14]Amma ümid
edirəm ki, tezliklə səni görəcəyəm və
səninlə üz-üzə söhbət edəcəyəm.
[15]Sənə sülh olsun. Dostlar sənə
salam göndərir. Oradakı dostlara bir-
bir salam söylə.

---

**1:1** *Həv. 19:29; Rom. 16:23-24; 1Kor. 1:14-15*